İnsanlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhəmmədin də Allahın Rəsulu olduğuna şahidlik edənə, namaz qılana və zəkat verənə qədər onlarla vuruşmaqla əmr olundum

İbn Ömərdən (Allah hər ikisindən razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "İnsanlar Allahdan başqa ibadətə layiq haqq məbudun olmadığına və Muhəmmədin də Allahın Rəsulu olduğuna şahidlik edənə, namaz qılana və zəkat verənə qədər onlarla vuruşmaqla əmr olundum. Əgər bunları edərlərsə, İslamın haqqı (icazəli etdiyi hallar) istisna olmaqla, qanlarını və mallarını məndən qorumuş olarlar, haqq-hesab çəkmək isə Allaha aiddir"

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, Allah ona müşriklərlə, Allahdan başqa ibadətə layiq məbud olmadığına və Məhəmmədin (Allahın salavatı və salamı onun üzərinə olsun) Allahın Elçisi olduğuna şəhadət verənə və bu şəhadətin gərəyinə uyğun əməl edərək gecə və gündüz beş vaxt namazı qılana və zəkatı layiq olanlara verənə qədər döyüşməyi əmr etmişdir. Əgər bu şeyləri edərlərsə, İslam onların qanlarını və mallarını qoruyar. İslam hökmlərinə əsasən öldürülməyə layiq olduqları bir günah və ya cinayət işləmədikcə onları öldürmək icazəli deyil. Qiyamət günü isə uca Allah onların sirli hallarını bildiyi üçün onları hesaba çəkəcək.

https://sunnah.global/hadeeth/az/show/4211